Yeni Təfəkkür .- 2026.- 6 fevral (№03).- S.3.

# FİRİDUN BƏY KÖÇƏRLİ YARADICILIĞINDA TEATRIN ROLU

**"Mətbuat cəmiyyətin aynasıdır".**

*H.b.Zərdabi*

***Azərbaycan ədəbiyyatşünaslığının yaradıcısı, bacarıqlı pedaqoq, istedadlı publisist Firidun bəy Köçərli, Şuşa ədəbi mühitinin tanınmış simalarından olmaqla yanaşı, Azərbaycan mədəniyyətində xüsusi imzası olan şəxsiyyətlərdəndir. Firidun bəy Köçərli 26 yanvar 1863-cü ildə Şuşada dünyaya göz açmışdır.***

F.b.Köçərlinin Azərbaycan incəsənətinin teatr sahəsində özünəməxsus xidməti var idi. O, pedaqoji fəaliyyəti ilə yanaşı, həm öz yazdığı kiçik pyeslərə, həm də tanınmış dramaturqların kiçikhəcmli əsərlərinə müraciət edərək tamaşalar hazırlayır, mədəniyyətimizin inkişafına müsbət mənada təsir göstərmək üçün şagirdlərin bu tamaşalarda iştirakına, onların hərtərəfli formalaşmasına çalışırdı.

Şuşa şəhərinin ictimai-siyasi mühiti, orada baş verən hadisələr Firidun bəyin həyatında ədəbiyyata və mədəniyyətə olan marağının inkişafına geniş imkanlar yaradırdı. O zaman Qarabağda şairlərdən ibarət "Məclisi-üns" və "Məclisi-fəramuşan" ədəbi məclisləri fəaliyyət göstərirdi. Firidun bəyi atası Əhmədağa kişi onu lap kiçik yaşlarından özü ilə şairlərin toplaşdığı bu məclislərə aparırdı. Belə məclislərdə söylənilən dastanları, qəzəlləri balaca Firidunun də dinləməsini istəyirdi. Şərq poeziyasını mükəmməl mənimsəmiş, saatlarla əzbərdən qəzəllər söyləməyi bacaran Əhmədağa kişi, ədəbi məclislərin ən hörmətli üzvlərindən idi. Qəzəlləri dinləyən Firidunun ədəbiyyata, poeziyaya həvəsi məhz oradan oyanmağa başlamışdır.

Doqquz yaşlı Firidunun gözəl təhsil alması üçün atası onu Şuşanın ən yaxşı mədrəsələrindən və nüfuzlu müddərislərindən olan Mirzə Kərim Mürşizadənin məktəbinə qoyur. Firidun bu məktəbdə çərəkə və cüzləri öyrənməklə yanaşı, "Gülüstan", "Bustan", "Leyli və Məcnun" kimi əsərləri də oxuyub, öyrənirdi.

İbtidai təhsilini mədrəsədə alan Firidunu atası Əhmədağa kişi 1876-cı ildə zamanın tələbinə uyğun olaraq rus dilini öyrənməsi üçün Şuşadakı rus məktəbinə qoyur. Üç il burada oxuduqdan (1878-1879) sonra Zaqafqaziyada məşhur təhsil ocağı kimi tanınan Qori Müəllimlər Seminariyasına uşaq toplamağa gələn görkəmli pedaqoq A.O.Çernyayevskinin xahişi ilə Əhmədağa kişi də yeganə oğlunu bu seminariyaya oxumağa göndərir və Qori Müəllimlər Seminariyası Firidun bəyin həyatında yeni səhifə açır. Burada rus dilinə mükəmməl yiyələnən Firidun bəy rus ədəbiyyatını dərindən öyrənir və rusdilli mətbuatda məqalələri ilə mütəmadi yazılar dərc etdirir. Görkəmli ədibin tanınmasında mətbuatın da böyük rolu olmuşdur.

Firidun bəy Köçərli seminariyanı bitirdikdən sonra burada qalıb azərbaycanlı balalarına dərs demək istəsə də, ona bu icazə verilmir. Firidun bəyi İrəvan gimnaziyasına Azərbaycan dili və şəriət dərslərindən dərs demək üçün göndərirlər. On il (1885-1895) İrəvan gimnaziyasında dərs desə də, bu illər ərzində yuxarı dairələrə mütəmadi olaraq ərizələr yazır, Qori Müəllimlər Seminariyasında çalışmaq istədiyini bildirirdi. Nəhayət ki, bu qədər müraciətdən sonra o, Qori Müəllimlər Seminariyasına göndərilir.

Firidun bəy İrəvan gimnaziyasına gəldiyi ilk gündən çox sevdiyi müəllimlik peşəsinə böyük həvəslə başlayır, az zaman içərisində nüfuz qazanmağı bacarır. Onun ən parlaq işlərindən biri rus ədəbiyyatından etdiyi tərcümələri idi. O, sonralar bu tərcümə əsərlərini dərsliklərə salırırdı.

1886-cı ildə 23 yaşlı gənc gimnaziya müəllimi olan Firidun bəy İrəvanda teatr tamaşası təşkil edir. M.F.Axundovun "Müsyö Jordan və Dərviş Məstəli Şah" komediyasının tamaşası İrəvan əhalisinin həyatında böyük bir hadisəyə çevrilir. Firidun bəy bu gimnaziyada çalışdığı müddətdə görürdü ki, elm, təhsil, maarif cəhətdən bu əyalət də Azərbaycanın digər əyalətləri kimi geridə qalmışdır. Çox az adam tapılardı ki, savadlı, oxumuş olsun. Bunun üçün əvvəlcə əhali arasında söhbətlər aparmaq, onları təhsilə cəlb etmək üçün təbliğatı gücləndirmək, onları maarifləndirmək lazım idi. Firidun bəy tədricən bu işin öhdəsindən gəlməyi bacarır.

Ədəbi yaradıcılıqla məşğul olmağa başlayan Firidun bəy, eyni zamanda klassik Azərbaycan ədəbiyyatı nümunələrini öyrənməklə və toplamaqla məşğul olur. Azərbaycan ədəbiyyatı klassiklərinin tanınması, üzə çıxması məhz Firidun bəy Köçərlinin adı ilə bağlıdır.

Firidun bəyin mədəniyyətimizə verdiyi ən böyük töhfəsi klassik irsimizin ədibləri haqqında meydana çıxardığı "Azərbaycan ədəbiyyatı" adlı əsəri olmuşdur. O, istər Tiflisdə, istərsə də İrəvanda olarkən bu işə başlamaq üçün bir çox ziyalı və şair dostlarla əlaqə yaradaraq, onların vasitəsilə həyatdan köçmüş azərbaycanlı ədiblər haqqında məlumatlar toplaya bilir. Sonra Azərbaycanın kənd, qəsəbə və rayonlarını gəzərək materiallar toplayır, gedə bilmədiyi bölgələrə isə məktublar göndərərək, dostlarını bu işə cəlb edirdi.

Əbəs yerə Firidun bəyi "Elm və irfan sahibi" adlandırmayırdılar. "Azərbaycan tatarlarının ədəbiyyatı" əsəri Firidun bəyin tanınmasında böyük əhəmiyyəti oldu. Əsər zamanın tələbinə uyğun olaraq, "Azərbaycan tatarlarının ədəbiyyatı", "Azərbaycan türklərinin ədəbiyyatı", "Azərbaycan ədəbiyyatı tarixi materialları" və "Azərbaycan ədəbiyyatı" adı ilə nəşr olunmuş və 129 ədəbi şəxsiyyət haqqında materiallar toplanmışdır. Onu da qeyd etmək lazımdır ki, Firidun bəyə qədər Azərbaycan ədəbiyyatının tarixi tədqiq edilməmişdir. Öyrəndikləri və oxuduqları ilə kifayətlənməyərək, məktəblər üçün dərsliklər hazırlayır, tərcümələr edir, kiçikhəcmli pyeslər, hekayələr, nağıllar yazır, şagirdlərinin iştirakı ilə tamaşalar hazırlayaraq səhnələşdirirdi. O, bilirdi ki, mədəniyyətin əsas qollarından biri maarifçilik təbliğatıdır. Yalnız təbliğat vasitəsilə ədəbiyyatı, incəsənəti (teatr, musiqi və.s) inkişaf etdirmək mümkündür.

Teatr mədəniyyətinin yaranmasında xalq müəllimlərindən aktyor istedadına malik olanlar var idi ki, onlar teatr mədəniyyətinin yaranmasında xeyli zəhmət çəkmişdilər. Teatr tədricən inkişaf edərək tərbiyəvi vasitə kimi məişətə daxil olmağa başlayır.

Firidun bəy ədəbiyyatın mədəniyyətlə vəhdətindən bəhs edərkən, dramaturqların tamaşaya qoyulmuş əsərlərini zamana görə vacib hesab edirdi. O, M.F.Axundovun əsərlərini dönə-dönə təbliğ edirdi. Komediyaların müxtəlif şəhərlərdə yerli həvəskarlar tərəfindən tamaşaya qoyulması münasibətilə qəzetlərə sevinc hissi ilə xəbərlər göndərir, məqalələrində Azərbaycan komediyalarını, teatrını Şərq dram yazarları üçün məktəb adlandırırdı. Axundov komediyalarını Azərbaycan teatrının yaranmasında ədəbi bünövrə sayır, bunu mədəniyyətimizin inkişafına doğru bir irəliləyiş hesab edirdi. Firidun bəy rusdilli mətbuatda da Azərbaycan tamaşaları haqqında yazılar dərc etdirir, rusdilli ictimaiyyəti məlumatlandırırdı.

F.b.Köçərli Abdulla Şaiqin məsləhət və qeydlər üçün ona göndərdiyi "Bahar xanım" adlı bir pərdəlik mənzum pyesini bəyənərək, görkəmli bəstəkar Üzeyir bəy Hacıbəyovla danışır, bu pyesi operetta şəklinə salmağı məsləhət bilmişdir.

Millətin sabahını düşünən Köçərli müsəlmanların təlim-tərbiyəsinə, zehniəxlaqının inkişafına teatr tamaşalarının təsir göstərəcəyini gözəl başa düşdüyündən, qələm sahiblərini bir-birindən daha yaxşı əsərlər yazmağa dəvət edirdi.

Məlumdur ki, mövhumatın hökm sürdüyü zamanlarda həmişə mədəniyyətimizin inkişafına mane olmaq istəyən qüvvələr olmuşdur. Bu qüvvələr teatrı qəbul etmir, onu haram hesab edir, ona əyləncə vasitəsi kimi baxırdılar. Hətta tamaşalara gedənləri kafir adlandırırdılar. Bu səbəbdən ziyalılar mədəniyyətin inkişafı üçün çəkdikləri zəhmətlərinin fonunda dindarlar tərəfindən təqib və təzyiqlərə məruz qalırdılar. Köçərli bu yolda da təbliğatın köməyə gələcəyini anlayırdı, amma buna xeyli zaman gərək idi.

Görkəmli ədib F.b.Köçərli maariflənmədə məktəbin rolunun əsas olduğu qədər, teatrın da əsas olduğunu söyləyirdi. Bu fikrə qoşulan ictimai-siyasi xadimlərdən N.Nərimanov, H.b.Zərdabi, H.b.Vəzirov, Ə.Haqverdiyev, S.M.Qənizadə, A.Şaiq, Ü. Hacıbəyovu və digər ziyalılarımızı misal göstərə bilərik. Firidun bəy bilirdi ki, yaşadığı mühitin sosial və iqtisadi, ailə-məişət problemlərini teatr səhnələri ilə insanlara əyani surətdə başa salmaq daha təsiredici olar. Bu səbəbdən o teatra çox ciddi yanaşırdı.

Kitab həvəskarı olan Firidun bəy, Azərbaycan və rus ədəbiyyatı daxil olmaqla, dünya ədəbiyyatının da əsərlərini mütaliə edir, oradan götürdüyü bir çox nümunələri öz ədəbiyyatımızda, mədəniyyətimizdə görmək istəyirdi. O, həyatdakı mənfi tiplərin obrazını səhnələşdirilməsini və tamaşaçı ixtiyarına verilməsini maarifçilik təbliğinin bir hissəsi hesab edirdi. Firidun bəy dramaturgiyadan danışarkən, M.F.Axundovun dramaturgiyasını həm ədəbiyyatımızın, həm də bütövlükdə mədəniyyətimizin qələbəsi sayırdı. O, özünün "Azərbaycan komediyaları" (1895) və "Azərbaycan ədəbiyyatı" (1903) əsərlərində milli dramaturgiyanın inkişafından danışarkən, Axundov ənənələrindən öyrənməyi gənc dramaturqların müsbət keyfiyyəti kimi xüsusi qeyd edirdi.

F.b. Köçərli "Azərbaycan ədəbiyyatı" əsərində dramaturgiyanın inkişafında teatrın rolundan söhbət açaraq yazırdı: "...bizim yaşadığımız zamanədə dramatik əsərlər Azərbaycan yazıçılarının zövqlərinə uyğun gəlmişdir. Bu, başlıca olaraq belə bir vəziyyətlə izah olunur ki, ədəbi əsərlərin bu növündə cəmiyyətdəki nöqsanları və qüsurları daha dolğun və aydın şəkildə göstərmək və həmin əsərləri səhnədə tamaşaya qoymaqla kütlənin diqqətini bu nöqsanlara və qüsurlara cəlb etmək mümkündür".

Köçərlinin həyatı və yaradıcılıq fəaliyyəti əsasən Tiflis mühiti ilə bilavasitə bağlı olsa da, o, Bakı və Azərbaycanın bölgələri ilə müntəzəm əlaqə saxlayırdı. Azərbaycanda baş verən hadisələrə biganə qala bilməyən ədib onu narahat edən siyasi və mədəni xəbərləri izləyir, əhalinin vəziyyətindən xəbər tuta bilirdi.

Mövhumatçı xürafatçıların ziyalılara qarşı törətdikləri ixtilaflar, çəkişmələr bir çox halda pis sonluqla bitirdi. Mədəniyyətimizin əsas bazası olan teatr özünü formalaşdırmağa çalışdığı bir vaxtda belə adamlar Bakıda "Tağıyev teatrı" adlandırılan binanı yandıraraq, bu sənəti tənəzzülə uğratmağa çalışdılar. F.b.Köçərli bu işdə təbliğatı avam, savadsız kütlələr arasında aparılmasını, onlara mədəniyyətin nə olduğunu anlatmağa, bunun üçün isə təhsil almağın vacib olduğunu başa salmaq üçün mübarizəni dayandırmamağı vacib sayırdı, bu yolda səylə çalışırdı.

F.b.Köçərli vətənpərvər, millətsevər pedaqoq olmaqla yanaşı, həm də yüksək səviyyəli mədəniyyət təbliğatçısı idi. O, çar məmurları tərəfindən izləndiyini bilsə də bu yolda çalışmaqdan, xalqının avam kütləsinin cəhalət yuxusundan oyanması yolunda mübarizə aparmaqdan çəkinmədi. Vətəninə, millətinə verdiyi dəyər bəzi hökümət dairələri tərəfindən qəbul edilmədiyindən ona "millətçi" damğası vururlar, bu da sonunda onun qətlinə səbəb olur.

Firidun bəy teatr sənətini gözəllik adlandırırdı. O, bu gözəlliyi dəyərləndirməyi, ondan zövq almağı, incəsənəti anlamağı vacib sayırdı.

Görkəmli pedaqoq, gözəl ədəbiyyatşünas alim olan Firidun bəy Azərbaycan folklorunun təbliğatı ilə məşğul olan əsl elm adamı idi.

Azərbaycan mədəniyyətinin əsas qollarından hesab edilən teatrı, Firidun bəy və onun kimi tərəqqipərvər ziyalılarımız dəyərləndirərək, göstərilən tamaşaların mövzularını yaşadığımız həyatın ən aktual məsələləri olduğunu cəmiyyətə çatdırmağa çalışırdılar.

Firidun bəy teatrla bağlı mətbuatda yazılar dərc etdirir və teatrı, mətbuatı zamanın, hətta günün tələbi adlandırırdı. Onun fikrinə görə, mətbuat cəmiyyətin güzgüsü olduğu kimi, teatr da həyatın güzgüsü idi.

Firidun bəy Köçərli XX əsr Azərbaycan ədəbiyyatı tarixində, mədəniyyətində, incəsənətində silinməz iz buraxaraq, şərəfli mövqeyə sahib olmağı bacardı.

✍ **Pərixanım Mikayılqızı,**

*"Şərqin səsi", "Elm və Təhsil" qəzetlərinin baş redaktoru, şair, nasir, publisist, F.b.Köçərlinin tədqiqatçısı, dövlət qulluğunun baş müşaviri, "Xarı bülbül", "X.b.Natəvan" medallarının və bir çox media mükafatlarının laureatı.*